Patent haqqında

Azərbaycan Respublikasının Qanunu

Bu Qanun ~~Azərbaycan Respublikası ərazisində~~ ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir.

I fəsil

Ümumİ müddəalar

Maddə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

~~sənaye mülkiyyəti obyekti — insanın əqli fəaliyyətinin nəticəsi olan ixtira, faydalı model və sənaye nümunəsi;~~

ixtira - istənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər;

faydalı model - qurğuya aid olan texniki həllər;

sənaye nümunəsi — məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədii-konstruktiv həll;

patent — ixtira, faydalı model və sənaye nümunəsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən mühafizə sənədi;

üsul - bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində, maddi vasitələrin köməyi ilə yerinə yetirilməsi;

məhsul - əqli fəaliyyətin nəticəsində yaradılan bitki və ya heyvan hüceyrələrinin kulturaları, mikroorqanizmlərin ştammı, maddə, qurğu;

qurğu — funksional-konstruktiv vəhdətdə olan konstruktiv elementlərdən və ya onların məcmusundan hazırlanmış məmulat, mexanizm, tikili;

iddia sənədi — ixtira, faydalı model və sənaye nümunəsinə patent almaq üçün tərtib edilmiş sənədlər toplusu.

Maddə 2. **Patent haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Patent haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və bu Qanuna müvafiq qəbul edilən digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 3. **ixtira, faydalı model və sənaye nümunələrinin hüquqi mühafizəsi**

ixtira, faydalı model və sənaye nümunələrinə hüquqlar dövlət tərəfindən qorunur və patentlə təsdiq edilir.

Patent, ixtira, faydalı model və sənaye nümunəsinə müəllifliyi və ilkinliyi təsdiq edir və onlardan istifadə etmək üçün müstəsna hüquq verir.

Kommersiya məqsədləri üçün istifadəsi ictimai mənafeyə, humanizm və əxlaqi prinsiplərə zidd olan, insanların, heyvanların həyat və sağlamlıqlarına, bitkilərin mühafizəsinə, ətraf mühitə ciddi ziyan vuran ixtira, faydalı model və sənaye nümunəsi patentlə mühafizə edilmir və onun istifadəsi qadağandır.

Maddə 4. **Sənaye mülkiyyəti sahəsində müvafiq icra hakimiyyəti orqanı**

1. Azərbaycan Respublikasının sənaye mülkiyyəti sahəsində müvafiq icra hakimiyyəti orqanı (bundan sonra— müvafiq icra hakimiyyəti orqanı) ixtira, faydalı model və sənaye nümunələrinin mühafizəsi sahəsində dövlət siyasətini həyata keçirir, bu Qanuna uyğun olaraq ixtira, faydalı model və sənaye nümunələri barəsində hüquqi və fiziki şəxslərdən iddia sənədlərini qəbul edir, onları ekspertizadan keçirir, ixtira, faydalı model və sənaye nümunələrini dövlət reyestrində qeydə alır, patent verir, rəsmi məlumatları nəşr edir, patent müvəkkillərinin attestasiyasını və qeydiyyatını aparır, bu Qanuna müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq digər funksiyaları həyata keçirir.

2. Müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri öz vəzifələrini yerinə yetirərkən və həmin orqanla əmək münasibətlərinə xitam verildikdən sonra 1 il ərzində patent barəsində iddia sənədi verə bilməzlər.

3. (Çıxarılıb)

Maddə 5. **Apellyasiya şurası**

1. ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədinin verilməsi, onun ekspertizası, patentin verilməsi, həmçinin patent müvəkkillərinin attestasiyası, qeydiyyatı və fəaliyyəti ilə bağlı mübahisələrə müvafiq icra hakimiyyəti orqanının apellyasiya şurasında baxılır.

Apellyasiya şurasının qərarından qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

2. Müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası haqqında Əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Maddə 6. **Patent müvəkkili**

1. Azərbaycan Respublikası ərazisində daimi yaşayan, ali təhsili olan, Azərbaycan Respublikasının dövlət dilini bilən, patent müvəkkillərinin Dövlət reyestrində qeydiyyata alınan Azərbaycan Respublikasının vətəndaşı patent müvəkkili ola bilər.

Patent müvəkkili Azərbaycan Respublikasının ərazisində ixtira, faydalı model və sənaye nümunələrinə patentin alınması və onun qüvvədə saxlanılması işlərinin aparılmasında vəkalət verən şəxsə köməklik göstərir, ixtira, faydalı model və sənaye nümunələri üzrə hüquqların reallaşdırılmasında, lisenziya müqavilələrinin bağlanması zamanı onu təmsil edir, müvafiq icra hakimiyyəti orqanında, məhkəmədə vəkalət verənin mənafelərini müdafiə edir və səlahiyyətləri çərçivəsində işləri yerinə yetirir.

2. Patent müvəkkillərinin fəaliyyəti bu Qanunla və müvafiq icra hakmiyyəti orqanı tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir.

3. Patent müvəkkili məsləhət verdiyi və ya ona verilən səlahiyyət daxilində həyata keçirdiyi fəaliyyətlə bağlı ixtira, faydalı model və sənaye nümunəsi obyektləri üzrə müəllif və ya şərikli müəllif ola bilməz.

II fəsil

İxtİra, faydalı model və sənaye nümunələrİnİn patent qabİlİyyətİ şərtlərİ

Maddə 7. **İxtiranın patent qabiliyyəti şərtləri**

1. İstənilən sahədə məhsula və ya üsula aid olan texniki həllər ixtira obyektləri sayılır.

2. Yeni, ixtira səviyyəli olan (bəlli olmayan) və sənayedə tətbiq edilə bilən (faydalı) ixtira obyektinə hüquqi mühafizə verilir.

3. Əgər ixtira mövcud bilgilər məcmusunda bir hissəni təkrarlamırsa, yeni sayılır. Mövcud bilgilər məcmusuna ixtira barəsində iddia sənədinin verildiyi günə kimi dünyada hamıya müyəssər olan məlumatlar aid edilir.İftira barəsində müvafiq icra hakimiyyəti orqanına daxil olan, rəsmi bülletendə dərc olunmuş iddia sənədləri də mövcud bilgilər məcmusuna daxil edilir.

İxtiranın yeniliyi müəyyən edilərkən mövcud bilgilər məcmusuna, həmçinin daha əvvəl ilkinliyə malik olan, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına daxil olan və geri götürülməyən ixtira və faydalı model barəsində iddia sənədləri, Azərbaycan Respublikasında patentlə mühafizə edilən ixtira və faydalı model də aid edilir.

4. Yeniliyi yalnız onların tətbiqində təzahür edən ixtiralara bu maddənin 3-cü bəndi tətbiq edilmir, ancaq bu şərtlə ki, tətbiq özü mövcud bilgilərdən irəli gəlməsin.

5. İxtira barəsində iddia sənədinin müvafiq icra hakmiyyəti orqanına verildiyi günə kimi 12 ay ərzində onun mahiyyətinə dair məlumat müəllif, iddiaçı və onlardan həmin məlumatı birbaşa və ya dolayısı ilə almış hər hansı şəxs tərəfindən açıqlanarsa, bu hal iddia sənədində göstərilən obyektin yeniliyinə xələl gətirmir. Açıqlanma faktının sübut edilməsi vəzifəsi müəllif və ya iddiaçının üzərinə düşür.

6. İxtira, həmin sahədə çalışan mütəxəssis üçün mövcud bilgilərdən açıq-aşkar irəli gəlmirsə, ixtira səviyyəsinə malik hesab edilir.

7. İxtiranın obyekti sənayenin və təsərrüfatın hər hansı sahəsində hazırlana və ya istifadə edilə bilərsə, o halda ixtira sənayedə tətbiq oluna bilən sayılır.

8. Aşağıdakı obyektlər ixtira sayılmır:

kəşflər;

elmi nəzəriyyələr;

riyazi metodlar;

bədii konstruktorluq işinin nəticəsi (dizayn);

təsərrüfatın və əqli fəaliyyətin təşkili, idarə edilməsi metodları;

oyunların qaydaları və metodları;

kompüter alqoritmləri və proqramları;

informasiyanın təqdimi üsulları;

şərti işarələr, cədvəllər və qaydalar;

qurğu (tikili kimi qurğu), bina, ərazi layihələri və planlaşdırma sxemləri;

mikroorqanizmlər istisna olmaqla, bitkilər və heyvanlar, onların mahiyyət üzrə bioloji yetişdirilməsi üsulları (qeyri-bioloji və mikrobioloji üsullar istisna olmaqla);

inteqral mikrosxemlərin topologiyası;

insan və heyvan orqanizmlərinin müalicəsinin cərrahi və terapevtik üsulları, xəstəliyin diaqnostikası metodları.

Maddə 8. **Faydalı modelin patent qabiliyyəti şərtləri**

1. Qurğu obyektləri faydalı model kimi mühafizə oluna bilər.

2. Yeni olan və sənayedə tətbiq edilə bilən faydalı modelə hüquqi mühafizə verilir.

3. Mühüm əlamətlərinin məcmusu mövcud bilgilərdən məlum olmayan faydalı model yeni hesab edilir.

Mövcud bilgilər məcmusuna təklif olunan faydalı modelin ilkinliyi tarixinə qədər eyni təyinatlı obyektlər və onların Azərbaycan Respublikasında tətbiqi barədə hamı üçün müyəssər olan məlumatlar aid edilir:

Digər hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasında faydalı modellər barəsində verdikləri və müvafiq icra hakimiyyəti orqanının rəsmi bülletenində dərc olunmuş iddia sənədləri də mövcud bilgilər məcmusuna aid edilir.

4. Faydalı model barəsində iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi günə kimi 12 ay ərzində onun mahiyyətinə dair məlumat müəllif, iddiaçı və onlardan həmin məlumatı birbaşa və ya dolayısı ilə almış hər hansı şəxs tərəfindən açıqlanarsa, bu hal iddia sənədində göstərilən obyektin yeniliyinə xələl gətirmir. Açıqlanma faktının sübut edilməsi vəzifəsi müəllif və ya iddiaçının üzərinə düşür.

5. Faydalı model sənayenin və təsərrüfatın hər hansı sahəsində hazırlana və ya istifadə edilə bilərsə, sənayedə tətbiq oluna bilən sayılır.

Aşağıdakılar faydalı model sayılmır:

məmulatın xarici görkəminə aid edilən və estetik tələblərin təminatına yönələn həllər;

inteqral sxemlərin topologiyası.

Maddə 9. **Sənaye nümunəsinin patent qabiliyyəti şərtləri**

1. Sənaye nümunəsinə məmulatın zahiri görkəmini müəyyən edən bədii-konstruktiv həllər aiddir. Sənaye nümünəsi şəkil və ya model, yaxud onların birliyindən ibarət ola bilər.

2. Yeni və ya orijinal olan~~, sənayedə tətbiq edilə bilən~~ sənaye nümunəsinə hüquqi mühafizə verilir.

3. Sənaye nümunəsinin estetik və erqonomik xüsusiyyətlərini doğuran mühüm əlamətlərinin məcmusu (forma, konfiqurasiya, ornament və ya rənglərin quraşması) onun ilkinlik tarixinə qədər mühüm əlamətlərinin məcmusu mövcud bilgilərdən məlum deyildirsə, sənaye nümunəsi yeni hesab edilir.

Mövcud bilgilər məcmusuna iddia edilən sənaye nümunəsinin ilkinliyi tarixinə qədər eyni təyinatlı obyektlər və onların Azərbaycan Respublikasında tətbiqi barədə hamı üçün müyəssər olan məlumatlar aid edilir. Mövcud bilgilər məcmusuna iddia edilən sənaye nümunəsinə aidiyyəti olan və əmtəə nişanı kimi Azərbaycan Respublikasında hüquqi mühafizəsi olan obyektlər də daxil edilir.

4. Sənaye nümunəsi barəsində iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi günə kimi 6 ay ərzində onun mahiyyətinə dair məlumat müəllif, iddiaçı və onlardan həmin məlumatı birbaşa və ya dolayısı ilə almış hər hansı şəxs tərəfindən açıqlanarsa bu hal iddia sənədində göstərilən obyektin yeniliyinə xələl gətirmir. Açıqlanma faktının sübut edilməsi vəzifəsi müəllif və ya iddiaçının üzərinə düşür.

5. Mühüm əlamətləri özünün estetik xüsusiyyətlərinə yaradıcı xarakter verən sənaye nümunəsi orijinal hesab edilir.

~~6. Dəfələrlə yenidən istehsal edilə bilən sənaye nümunəsi sənayedə tətbiq oluna bilən sayılır.~~

7. Aşağıdakı obyektlər sənaye nümunəsi sayılmır:

Məmulatın yalnız texniki funksiyasını şərtləndirən həllər;

arxitektura obyektləri (kiçik arxitektura formalarından başqa);

sənaye, hidrotexniki və başqa stasionar qurğular;

çap məhsulları;

maye, qaz, toz və ya bu kimi maddələrdən hazırlanmış dayanıqsız formalı obyektlər.

### Maddə 10. **Patentlə verilən hüquqi mühafizənin həcmi və onun qüvvədə olma müddəti**

1. ixtira, faydalı model və sənaye nümunəsinə patentlə verilən hüquqi mühafizənin həcmi aşağıdakı kimi müəyyən edilir:

ixtira və faydalı model üçün — onların düsturu ilə;

sənaye nümunəsi üçün — məmulatın (maketin, rəsmin) fotoşəklində göstərilən mühüm əlamətlərinin məcmusu ilə.

2. Azərbaycan Respublikası ərazisində patentin qüvvədə olma müddəti iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi gündən etibarən aşağıdakı kimi müəyyənləşdirilir:

ixtira üçün — 20 il;

faydalı model üçün — 10 il;

sənaye nümunəsi üçün — 10 il.

3. İxtira patentinin predmeti qanunvericiliyə uyğun olaraq inzibati prosedurlardan keçməsi tələb olunan məhsula və ya məhsulun hazırlanma üsuluna aid olarsa, patent sahibinin vəsatəti əsasında patentin qüvvədə olma müddəti 5 ilə qədər uzadıla bilər. Vəsatət patentin qüvvədə olduğu müddətdə verilir.

4. Sənaye nümunəsi patentinin qüvvədə olma müddəti patent sahibinin vəsatəti əsasında 5 ildən artıq olmamaq şərtilə uzadıla bilər.

5. İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

6. Məhsulun (məmulatın) alınma üsuluna patentlə verilmiş hüquq bilavasitə bu üsulla alınan digər məhsula da şamil edilir və əksini sübut edən hal olmadıqda yeni məhsul patentləşdirilmiş üsulla alınmış hesab edilir.

III fəsil

Müəllİf və patent sahİbİ

Maddə 11. **İxtiranın, faydalı modelin və sənaye nümunəsinin müəllifi**

1. İxtiranın, faydalı modelin və sənaye nümunəsini yaradıcı əməyi ilə yaradan şəxs müəllif sayılır.

ixtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında bir neçə fiziki şəxs iştirak etdikdə onların hamısı müəllif sayılır.

Müəlliflərə məxsus olan hüquqlardan istifadə qaydası onlar arasında bağlanmış müqavilə ilə tənzimlənir.

2. ixtira, faydalı model və sənaye nümunəsinin yaradılmasında şəxsən yaradıcı əməyi olmayan, müəllifə (müəlliflərə) yalnız texniki, təşkilati və ya maddi yardım etmiş, yaxud ixtira, faydalı model və sənaye nümunəsi üzərində hüquqların rəsmiləşdirilməsinə və ondan istifadəyə kömək göstərmiş fiziki şəxslər müəllif sayılmır.

3. Müəlliflik hüququ özgəninkiləşdirilməyən şəxsi hüquqdur və müddətsiz qorunur.

4. Müəlliflə iddiaçı və yaxud patent sahibi (işəgötürən olmayan) arasında ixtira, faydalı model və sənaye nümunəsinin istifadəsi ilə əlaqədar münasibətlər onların bağladıqları müqavilə ilə tənzimlənir.

ixtira, faydalı model və sənaye nümunələrinin istifadəsi ilə bağlı onların arasındakı mübahisələrə məhkəmə qaydasında baxılır.

Maddə 12. **Patent sahibi**

Patent aşağıda göstərilən şəxslərə verilir:

ixtira, faydalı model və sənaye nümunəsinin müəllifinə (müəlliflərinə) və ya onun (onların) varisinə;

patent verilməsi barədə iddia sənədində, yaxud ixtira, faydalı model və sənaye nümunəsi qeydiyyata alınana qədər müvafiq icra hakimiyyəti orqanına verilmiş ərizədə müəllifin

(müəlliflərin) və ya onun (onların) hüquqi varislərinin göstərdikləri hüquqi və ya fiziki şəxslərə (onların razılığı ilə);

bu Qanunun 13-cü maddəsində nəzərdə tutulan hallarda işəgötürənə.

Maddə 13. **İşəgötürən və müəllif**

1. Müəllif olan işçinin (bundan sonra — işçi) əmək fəaliyyəti göstərdiyi təşkilati hüquqi formasından asılı olmayaraq müəssisələrin mülkiyyətçisi və ya onun müvəkkil etdiyi müəssisə rəhbəri, səlahiyyətli orqanı, eləcə də qanunvericiliklə qadağan olunmayan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər işəgötürən sayılırlar.

2. Xidməti vəzifələrinin həyata keçirilməsi və ya işəgötürənin yazılı şəkildə verdiyi (istehsal, elmi-tədqiqat, bədii-qrafik və başqa səpkili)tapşırığı ilə əlaqədar işçinin yaratdığı ixtira, faydalı model və sənaye nümunəsi üçün patent almaq hüququ, işəgötürənlə işçi arasında müqavilədə başqa şərtlər nəzərdə tutulmayıbsa, işəgötürənə mənsubdur.

Yeni yaradılan ixtira, faydalı model və sənaye nümunəsi barəsində işəgötürənlə işçinin münasibətləri müqavilə ilə tənzimlənir.

3 . Bu maddənin 2-ci bəndinə uyğun ixtira, faydalı model və sənaye nümunəsini yaratmış işçi (işçilər) bu barədə işəgötürənə obyekti yaratdıqdan sonra 1 ay ərzində yazılı bildiriş göndərməlidir.

4. Əgər işəgötürən ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədi verməkdən imtina edərsə və ya bildirişi aldığı tarixdən sonra 3 ay müddətində bu hüquqdan istifadə etmək niyyətini işçiyə bildirməzsə, onda bu hüquq işçiyə keçir.

İddia sənədi verilənədək işəgötürən və işçi ixtira, faydalı model və sənaye nümunəsinin mahiyyətini açıqlamamalıdırlar.

5. Bu maddənin 4-cü bəndinə uyğun olaraq işçi patent aldığı tarixdən 6 ay müddətində işəgötürən lisenziya müqaviləsi üzrə patentdən istifadə olunmasında üstünlük hüququna malikdir.

6. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla bütün digər hallarda işçinin yaratdığı ixtira, faydalı model və sənaye nümunəsinə patent almaq hüququ işçiyə mənsubdur.

7. İşəgötürən işçiyə ixtira, faydalı model və sənaye nümunəsi yaratdığına görə aralarında bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq müvafiq məbləğdə haqq ödəyir.

İşəgötürən ixtira, faydalı model və sənaye nümunəsindən istifadə hüququnu başqasına verdikdə işəgötürənin götürdüyü gəlir işçiyə verilən haqqın məbləğinə uyğun gəlməzsə və ya əgər işəgötürən obyektin istifadəsində iştirakını davam etdirərsə və işçiyə ödənilən haqqa uyğun gəlməyən gəlir götürərsə, işçinin, haqq məbləğinin artırılmasını tələb etmək hüququ vardır.

ixtira, faydalı model və sənaye nümunəsinin istifadəsi zamanı işəgötürənlə işçi arasında bağlanan müqavilədə nəzərdə tutulandan çox iqtisadi səmərə əldə edilərsə, işçinin əlavə haqq almaq hüququ vardır.

İşəgötürən ixtira, faydalı model və sənaye nümunəsinə dair patentlə bağlı hüquqlardan imtina etməyi qərara aldıqda həmin ixtira, faydalı model və sənaye nümunəsi üzrə hüquqların işçiyə verilməsi barəsində müqavilə bağlamağı qabaqcadan ona təklif etməlidir.

8. Müvafiq icra hakimiyyəti orqanı dövlətin milli təhlükəsizliyi ilə bağlı olan xüsusi elmi-tədqiqat və ya layihə-konstruktor işlərinin sifarişçisi olduqda, icraçının bu işləri yerinə yetirməklə əlaqədar yaratdığı ixtira, faydalı model və sənaye nümunələrinə dair münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

9. İşəgötürən və işçi arasında ixtira, faydalı model və sənaye nümunəsinə dair yaranan mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

IV fəsil

İxtİradan, faydalı modeldən və sənaye nümunəsİndən İstİfadə hüququ

Maddə 14. **ixtira, faydalı model və sənaye nümunəsindən istifadə üçün müstəsna hüquq**

1. Sənaye mülkiyyəti obyektindən istifadə üçün müstəsna hüquq, digər patent sahiblərinin hüquqlarını və bu Qanunu pozmamaq şərtilə, patent sahibinə mənsubdur.

2. Patent sahibi patentə görə aşağıdakı müstəsna hüquqlara malikdir:

a) patentin obyekti məhsul (məmulat) olduqda, patent sahibinin razılığı olmadan üçüncü şəxs tərəfindən onun icazəsiz istehsalının, istifadəsinin, satış üçün təklif olunmasının, satışının və bu məqsədlər üçün idxalının qarşısını almaq;

b) patentin obyekti üsul olduqda, patent sahibinin razılığı olmadan üçüncü şəxs tərəfindən bu üsulun tətbiqi ilə bağlı hərəkətlərin, habelə bilavasitə bu üsulla alınan məhsuldan istifadənin, məhsulun satışının, satış üçün təklif olunmasının və ya bu məqsədlər üçün idxalının qarşısını almaq.

Mühafizə olunan sənaye nümunəsinin sahibi onun icazəsi olmadan üçüncü şəxs tərəfindən həmin nümunənin və ya ona bənzər olan nümunənin surətini özündə daşıyan və ya tərkibinə daxil edən məmulatın kommersiya məqsədilə hazırlanmasının, satışının və ya idxalının qarşısını almaq hüququna malikdir.

3. Patent sahibi patentlə verilən hüquqlardan dövlətin və cəmiyyətin mənafelərinə xələl gətirmədən istifadə etməlidir.

4. ixtira, faydalı model və sənaye nümunəsinin bir neçə patent sahibi olduqda patent üzrə hüquqlar onların hər biri tərəfindən öz aralarındakı müqaviləyə uyğun başqa hüquqi və ya fiziki şəxsə verilə bilər.

Onlar razılığa gələ bilmədikdə mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

Maddə 15. **ixtira, faydalı model və sənaye nümunəsindən istifadə**

1. Patentləşdirilmiş ixtira, faydalı model və sənaye nümunəsinin tətbiqi ilə hazırlanan məhsulun təsərrüfat dövriyyəsinə daxil edilməsi, habelə patentləşdirilmiş ixtira, faydalı model

və sənaye nümunəsinin bütün mühüm əlamətlərini birləşdirən üsulun tətbiqi ixtira, faydalı model və sənaye nümunəsindən istifadə sayılır.

2. Patenti bir neçə şəxsə məxsus olan ixtira, faydalı model və sənaye nümunəsindən istifadə üzrə münasibətlər həmin şəxslər arasında bağlanmış müqavilə ilə müəyyənləşdirilir. Bu cür müqavilə olmadıqda onların hər biri, ixtira, faydalı model və sənaye nümunəsi üzrə lisenziyanın və ya patentlə bağlı hüquqların digər şəxsə verilməsindən başqa, ixtira, faydalı model və sənaye nümunəsindən istədiyi kimi istifadə edə bilər. ixtira, faydalı model və sənaye nümunəsi barəsində patent sahibləri arasında yaranan mübahisələrə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

3. ixtira, faydalı model və sənaye nümunəsinin iddiaçısı patenti alanadək obyektdən istifadə hüququnu, müqavilə əsasında istənilən hüquqi və ya fiziki şəxsə verə bilər. ixtira, faydalı model və sənaye nümunəsinin bir neçə iddiaçısı olduqda iddia sənədi üzrə hüquqlar onların hər biri tərəfindən öz aralarındakı müqaviləyə uyğun başqa hüquqi və ya fiziki şəxsə verə bilər. İstifadə hüququnun verilməsi barədə müqavilə iddiaçı vəsatət qaldırdıqdan və müəyyənləşdirilmiş rüsumu ödədikdən sonra müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır.

ixtira, faydalı model və sənaye nümunəsinin müvəqqəti hüquqi mühafizəsi dövründə ondan istifadə etmiş hüquqi və ya fiziki şəxs iddiaçı tərəfindən patent alındıqdan sonra ondan istifadəni davam etdirmək üçün bu Qanunun 19-cu maddəsinə uyğun olaraq patent sahibi ilə lisenziya müqaviləsi bağlaya bilər.

4. Patent sahibi patentlə bağlı hüquqları vərəsəlik üzrə və ya digər şəxslərə vermək, habelə onun istifadəsinə görə lisenziya müqaviləsi bağlamaq üçün müstəsna hüquqlara malikdir.

Maddə 16. **İlkin istifadə hüququ**

1. Patentlə mühafizə olunan ixtira, faydalı model və sənaye nümunəsinin ilkinlik tarixinə qədər onun müəllifindən asılı olmayaraq eyni ixtira, faydalı model və sənaye nümunəsini yaradıb Azərbaycan Respublikası ərazisində vicdanla istifadə etmiş və ya ondan istifadə üçün zəruri hazırlıq işlərini görmüş hüquqi və ya fiziki şəxsin ixtiyarı var ki, maneəsiz olaraq və patent sahibinə haqq ödəmədən, istifadə həcmini genişləndirməmək şərtilə bu obyektdən müstəqil istifadəni davam etdirsin.

2. İlkin istifadəçinin hüquqlarının tanınması üçün müvafiq icra hakimiyyəti orqanı onun vəsatəti əsasında iddiasına baxıb bu barədə patent sahibinə 1 ay ərzində bildiriş göndərir. İlkin istifadəçi vəsatət verdikdə müəyyənləşdirilmiş rüsumu ödədiyini təsdiqləyən sənədi də təqdim edir.

Patent sahibindən ilkin istifadə barədə 2 ay ərzində etiraz gəlmədikdə müvafiq icra hakimiyyəti orqanı ilkin istifadəçinin hüquqlarının tanınmasına dair qərar çıxararaq müvafiq dövlət reyestrində qeydə alır və rəsmi bülletendə dərc edir.

İlkin istifadəçi ilə patent sahibi arasında mübahisələrə məhkəmə qaydasında baxılır.

3. İlkin istifadə hüququ varisə, başqa hüquqi və ya fiziki şəxsə yalnız ixtira, faydalı model və sənaye nümunəsinin istifadə edildiyi və ya onun istifadəsi üçün hazırlıq işləri görülmüş istehsalatla birlikdə verilə bilər. Varis, hüquqi və ya fiziki şəxs həmin hüquqdan bu maddənin 1-ci bəndinə uyğun olaraq ilkin istifadəçiyə verilmiş həcmdə istifadə edə bilərlər.

Maddə 17. **ixtira, faydalı model və sənaye nümunələri ilə bağlı hüquqların verilməsi**

1. Azərbaycan Respublikasının qanunvericiliyində digər hallar nəzərdə tutulmayıbsa, istənilən iddia sənədi, patent və ya onlarla bağlı hüquqlar tamamilə və ya qismən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan qaydada özgəninkiləşdirilə bilər.

2. Patent hüququnun girov qoyulması barədə müqavilə müəyyən edilən dövlət rüsumunun ödənilməsi şərtilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydalar əsasında qeydiyyata alınır.

3. ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədinin, patentin və ya onlarla bağlı hüquqların başqasına verilməsi müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır.

Maddə 18. **ixtira, faydalı model və sənaye nümunəsindən patent sahibinin razılığı olmadan istifadə**

Milli təhlükəsizlik maraqlarını təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının patent sahibinin razılığı olmadan ixtira, faydalı model və sənaye nümunəsindən istifadəyə razılıq vermək hüququ vardır. Bu hallarda patent sahibinə uyğun kompensasiya ödənilir. Patent sahibi kompensasiyanın məbləğindən razı olmadığı halda Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhkəməyə müraciət edə bilər.

Maddə 19. **ixtira, faydalı model və sənaye nümunəsindən istifadə hüququnun verilməsinə dair müstəsna və qeyri-müstəsna lisenziya müqavilələri**

1. Patent sahibi olmayan istənilən hüquqi və ya fiziki şəxs ixtira, faydalı model və sənaye nümunəsindən yalnız patent sahibinin razılığı ilə, lisenziya müqaviləsi əsasında istifadə edə bilər.

Lisenziya müqaviləsinə görə patent sahibi (lisenziar) ixtira, faydalı model və sənaye nümunəsindən istifadə hüququnu müqavilədə nəzərdə tutulmuş həcmdə başqa hüquqi və ya fiziki şəxsə (lisenziata) verir. Lisenziya müqaviləsi müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır.

2. Lisenziya müstəsna və qeyri-müstəsna ola bilər.

Müstəsna lisenziya lisenziata ixtira, faydalı model və sənaye nümunəsindən lisenziya müqaviləsində nəzərdə tutulmuş həcmdə müstəsna istifadə hüququ verir.

Lisenziat lisenziarın yazılı razılığı ilə digər hüquqi və ya fiziki şəxslə sublisenziya müqaviləsi bağlaya bilər. Bu müqavilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmalıdır.

Sublisenziya qeyri-müstəsna xarakteri daşıyır və başqasına verilə bilməz. Müstəsna lisenziyaya xitam verildikdə sublisenziya müqaviləsinə də xitam verilir.

3. Qeyri-müstəsna lisenziya zamanı lisenziar ixtira, faydalı model və sənaye nümunəsindən istifadə hüququnu müqavilə əsasında lisenziata verməklə patentlə təsdiq edilən bütün hüquqları, o cümlədən üçüncü şəxslərə lisenziya vermək hüququnu özündə saxlayır.

4. Müvafiq icra hakimiyyəi orqanında qeydiyyata alınmış lisenziya müqaviləsində tərəflərin qarşılıqlı razılığı ilə dəyişikliklər edildikdə bu cür dəyişikliklər həmin müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmalıdır.

5. Lisenziya müqaviləsi ilə bağlı mübahisələrə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

Maddə 20. **Məcburi lisenziya və patent sahibinin razılığı olmadan digər istifadə halları**

1. Patent sahibi və ya onun varisi patentin verildiyi tarixdən 3 il müddətində ixtira, faydalı model və sənaye nümunəsindən üzürsüz səbəbə görə istifadə etmədikdə, istifadəyə ciddi hazırlıq görmədikdə, yaxud istifadəni 3 ildən artıq dayandırdıqda və bu müddət qurtardıqdan sonra lisenziya verməkdən imtina etdikdə, istənilən hüquqi və ya fiziki şəxs ixtira, faydalı model və sənaye nümunəsindən istifadə üçün məcburi lisenziya verilməsi barədə məhkəməyə iddia ilə müraciət edə bilər. Məcburi lisenziya qeyri-müstəsna xarakter daşıyır.

Lisenziat məcburi lisenziyanın verildiyi tarixdən 2 il ərzində istifadə etmədikdə patent sahibi qanunvericiliklə müəyyən edilmiş qaydada lisenziyanın ləğv edilməsi barədə məhkəməyə müraciət edə bilər.

Məcburi lisenziyanın verildiyi tarixdən patent sahibi ilə məcburi lisenziyanı almış şəxs arasında münasibətlər bu Qanunla müəyyən edilmiş lisenziarla lisenziat arasındakı münasibətlərə bərabər tutulur.

~~2. Patent sahibi başqa patent sahibinin hüquqlarını pozmadan ixtira, faydalı model və sənaye nümunəsindən istifadə edə bilmədikdə ondan lisenziya müqaviləsi bağlamağı tələb edə bilər. Bu barədə mübahisələrə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.~~

2. Aşağıdakı şərtlərə riayət etməklə, hüquq sahibinin razılığı olmadan patent obyektindən dövlət və ya onun müvəkkil etdiyi şəxslər tərəfindən digər istifadə hallarına yol verilə bilər:

2.1. bu cür istifadəyə icazənin verilməsi patent obyektinin fərdi xüsusiyyətlərinə əsaslanmalıdır;

2.2. bu cür istifadədən əvvəl müraciət etmiş istifadəçinin məqbul kommersiya şərtləri ilə hüquq sahibindən razılıq almaq cəhdləri uğursuzluqla nəticələnmişdirsə istifadəyə icazə verilə bilər.

Bu şərtə fövqəladə hallarda və ya digər fors-major hallarında, habelə dövlətin qeyri-kommersiya məqsədləri üçün hüquqdan istifadə etdiyi hallarda riayət olunmaya bilər. Belə olduqda patent hüququnun sahibinə ən qısa müddətdə məlumat verilməlidir;

2.3. bu cür istifadənin həcmi və müddəti ona razılıq verilən məqsədlə məhdudlaşır, yarımkeçiricilər texnologiyası sahəsində isə yalnız dövlət tərəfindən qeyri-kommersiya məqsədləri və yaxud məhkəmə və ya inzibati prosedurlar nəticəsində rəqabəti məhdudlaşdıran kimi müəyyənləşdirilən təcrübənin qarşısının alınması üçün nəzərdə tutulur;

2.4. bu cür istifadə müstəsna xarakter daşımır;

2.5. bu cür istifadəni həyata keçirən müəssisənin hissəsi və ya onun qeyri-maddi aktivləri ilə birgə olmadan bu cür istifadə digər şəxslərə verilə bilməz;

2.6. hər bu cür istifadəyə razılıq verilməsinin əsas məqsədi ilk növbədə daxili bazarın tələbatının ödənilməsi olmalıdır;

2.7. əgər bu cür istifadəyə səbəb olan hallar aradan qalxarsa və onların yenidən təkrarlanması ehtimalı aşağı olarsa, razılıq alan şəxslərin qanuni maraqlarının təmin edilməsi şərtilə istifadə hüququ ləğv edilir.

Bu maddədə göstərilən halların davam etdiyinə dair əsaslandırılmış ərizə daxil olarsa müvafiq icra hakimiyyəti orqanı bu cür istifadəyə icazə verilməsi məsələsinə yenidən baxmaq səlahiyyətinə malikdir;

2.8. hər bir halın xüsusiyyətləri və razılığın iqtisadi dəyəri nəzərə alınmaqla, hüquq sahibinə müvafiq mükafat (kompensasiya) ödənilir;

2.9. bu cür istifadəyə verilən razılıq və hüquq sahibinə ödənilən mükafat (kompensasiya) barədə istənilən qərardan qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər;

2.10. məhkəmə və ya inzibati prosedurlar nəticəsində rəqabəti məhdudlaşdıran kimi müəyyən edilən təcrübənin aradan qaldırılması məqsədi ilə patent obyektinə istifadəyə razılıq verildiyi halda, bu maddənin 2.2-ci və 2.6-cı bəndlərində göstərilən şərtlər tətbiq edilmir.

Rəqabəti məhdudlaşdıran təcrübənin aradan qaldırılmasının zəruriliyinə baxılarkən, ödəniləcək mükafatın (kompensasiyanın) məbləği nəzərə alına bilər. Razılığın verilməsinə əsas olan halların yenidən yaranma ehtimalı olduğu halda müvafiq icra hakimiyyəti orqanı razılığın ləğv edilməsindən imtina edə bilər;

2.11. əgər bu cür istifadəyə razılıq başqa patentə (birinci patent) dair hüquqları pozmadan patentin (ikinci patent) istifadəsinin mümkün olmadığına görə verilirsə, aşağıdakı əlavə şərtlər tətbiq edilir:

a) birinci patentin obyekti olan ixtira ilə müqayisədə ikinci patentin alınması üçün verilən iddia sənədindəki ixtira böyük iqtisadi dəyərə malik olan əhəmiyyətli texniki həlli özündə əks etdirməli;

b) birinci patent sahibinin ikinci patentlə iddia edilən ixtiradan istifadə etməsi üçün münasib şərtlərlə çarpaz lisenziya müqaviləsi bağlamaq hüququna malik olmalı;

c) birinci patentə verilən razılıqdan istifadə hüququ, ikinci patentə dair hüquqların verilməsi istisna olmaqla, digər şəxslərə verilə bilməz.

3. İxrac edilən patentləşmiş əczaçılıq məhsullarına məcburi lisenziya verilərkən, lisenziya müqaviləsində aşağıdakı şərtlər öz əksini tapmalıdır:

a) lisenziya üzrə məhsul yalnız zəruri miqdarda idxal edən ölkənin minimum tələblərini təmin etmək məqsədilə istehsal edilə bilər;

b) lisenziya üzrə istehsal edilən məhsul idxal olunan məhsuldan müvafiq işarə və ya nişanla fərqlənməlidir. Lisenziya üzrə istehsal olunan məhsulların bu cür fərqlənməsi məhsulların xüsusi bükmələri və (və ya) bilavasitə məhsulların rəngləri (formaları) ilə o şərtlə həyata keçirilə bilər ki, bu fərqlənmə amilləri tətbiq edilə bilən olsun və məhsulların qiymətinə təsir etməsin;

c) lisenziyalı məhsulların ixracından əvvəl ona dair aşağıdakı məlumatlar Ümumdünya Ticarət Təşkilatının internet səhifəsində (veb-saytında) yerləşdirilməlidir:

bütün istiqamətlərə göndərilən məhsulların miqdarı;

məhsulların fərqləndirici xüsusiyyətləri.

Maddə 21. **ixtira, faydalı model və sənaye nümunələri ndən istifadənin dövlət tərəfindən həvəsləndirilməsi**

Dövlət ixtira, faydalı model və sənaye nümunəsinin yaradılması və istifadəsini həvəsləndirir, müəlliflərə, patent sahiblərinə və təsərüfat subyektlərinə güzəştlər, o cümlədən güzəştli kreditlər müəyyən edə bilər.

V fəsil

Patent hüquqlarının pozulması

Maddə 22. **Patent sahibinin müstəsna hüquqlarının pozulması**

1. Patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi obyektlərindən bu Qanunun müddəalarının pozulması ilə istifadə edilməsi, təsərrüfat dövriyyəsinə başqa şəkildə daxil edilməsi və ya bu məqsədlə saxlanması patent sahibinin müstəsna hüququnun pozulması sayılır.

2. Mülki mühakimə icraatının məqsədləri üçün patent sahibinin bu Qanunun 14-cü maddəsinin 2-ci bəndində göstərilən hüquqlarının pozulması zamanı patentin predmeti məhsulun alınma üsulu olarsa, məhkəmə məhsulun alınması üçün istifadə edilən üsulun patentləşdirilmiş üsuldan fərqlənməsinə dair dəlillərin təqdim edilməsini cavabdehdən tələb edə bilər. Təkzibedici dəlillər təqdim olunanadək patent sahibinin razılığı olmadan alınan istənilən məhsul patentləşmiş üsulla alınmış hesab edilir, əgər:

a) patentləşmiş üsulla alınan məhsul yeni olarsa;

b) bu məhsulun patentləşmiş üsulla alınması ehtimalı yüksəkdir və patent sahibi ağlabatan tədbir görməklə onun alınmasında hansı üsulun tətbiq edildiyini müəyyən edə bilmirsə.

3. Bu maddənin 2-ci bəndinin birinci abzasında göstərilənlərin sübut edilməsi patent sahibinin hüquqlarının pozulmasında təqsirləndirilən şəxsin üzərinə o halda düşür ki, a) və ya b) yarımbəndlərində göstərilən şərtlər yerinə yetirilsin.

4. Əks dəlilləri təqdim edən cavabdehin istehsalat və kommersiya sirrinin qorunması sahəsində qanuni maraqları nəzərə alınır.

Maddə 23. **Patent sahibinin müstəsna hüquqlarının pozulması sayılmayan hallar**

Aşağıdakı hallar patent sahibinin müstəsna hüquqlarının pozulması sayılmır:

tərkibində patentləşdirilmiş ixtira, faydalı model və sənaye nümunəsi olan vasitələrdən qeyri-kommersiya məqsədləri üçün gəlirsiz istifadəsi;

patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi obyektlərinin elmi, eksperiment, tədqiqat və həmin obyektlərin yoxlanılması məqsədləri üçün patentin qüvvədə olma müddəti bitənədək böyük həcmdə istehsala və ya məhsulların toplanmasına gətirib çıxarmaması şərti ilə istifadəsi;

həkimin resepti üzrə birdəfəlik istifadə üçün dərman hazırlanması;

Azərbaycan Respublikasının nəqliyyat vasitələri sahiblərinə eyni hüquqlar verən xarici ölkələrin hüquqi və ya fiziki şəxslərinə məxsus olan, müvəqqəti və ya təsadüfən Azərbaycan Respublikasının ərazisinə gətirilmiş nəqliyyat vasitələrinin ehtiyacları üçün patentləşdirilmiş ixtira, faydalı model və sənaye nümunəsindən həmin nəqliyyat vasitələrinin konstruksiyasında və ya istismarı zamanı istifadə.

Maddə 24. **Patentin pozulması**

1. ~~Patentlə mühafizə edilən sənaye mülkiyyəti obyektindən bu Qanunun müddəalarının pozulması ilə istifadə edən istənilən hüquqi və ya fiziki şəxs patent hüquqlarını pozan hesab edilir.~~ Patent hüquqlarını pozan şəxs qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilə bilər.

2. Patent sahibi patenti pozmuş hüquqi və ya fiziki şəxslə ona dəymiş zərərin ödənilməsi barədə razılığa gəlmədiyi halda mübahisələrə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

VI fəsil

İddİa sənədİnİn verİlməsİ və patent alınması

Maddə 25. **Milli təhlükəsizliklə bağlı ixtira, faydalı model və sənaye nümunələri**

ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədində göstərilən məlumatın açıqlanması Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilərsə, həmin iddia sənədinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən qaydada baxılır.

Maddə 26. **Beynəlxalq iddia sənədi**

1. Beynəlxalq iddia sənədi müvafiq icra hakimiyyəti orqanına verildikdə Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrə əsasən həmin iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən 2 ay ərzində, iddiaçı onun düsturunun, referatının və təsvirinin Azərbaycan dilində tərcüməsini təqdim etməlidir.

2. Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsləri beynəlxalq iddia sənədini Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrə müvafiq qaydada verə bilərlər.

3. Müvafiq icra hakimiyyəti orqanı bu maddənin 2-ci bəndinə uyğun verilən beynəlxalq iddia sənədini alan orqan kimi çıxış edir.

Maddə 27. **Patent almaq üçün iddia sənədinin verilməsi**

1. ixtira, faydalı model və sənaye nümunəsi üçün patent almaq istəyən hüquqi və ya fiziki şəxs müvafiq icra hakimiyyəti orqanına iddia sənədi verməlidir.

2. İddiaçı müvafiq icra hakimiyyəti orqanına iddia sənədini aşağıdakı qaydada verə bilər:

bilavasitə özü;

müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmış patent müvəkkili vasitəsilə.

Xarici hüquqi və fiziki şəxslər iddia sənədini müvafiq icra hakimiyyəti orqanına, Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, yalnız Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmış patent müvəkkilləri vasitəsilə verirlər.

Patent müvəkkillərinin səlahiyyətləri iddiaçı tərəfindən verilən etibarnamə ilə təsdiq edilir.

3. İxtira və ya faydalı model barəsində iddia sənədi bir ixtiraya və ya faydalı modelə, yaxud öz aralarında vəhdət təşkil edən bir qrup ixtiraya və ya faydalı modelə aid edilməlidir. İddia sənədinə aşağıdakılar daxil edilir:

müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

ixtiranın və ya faydalı modelin mahiyyətini tam açıqlayan və həyata keçirilməsi üçün kifayət qədər aydınlıq yaradan təsviri;

ixtiranın və ya faydalı modelin təsvirinə əsaslanan və mahiyyətini ifadə edən düsturu;

iddia obyektinin mahiyyətinin başa düşülməsi üçün zəruri olan çertyojlar və başqa materiallar;

referat.

4. Sənaye nümunəsi barəsində iddia sənədi bir sənaye nümunəsinə aid edilir.

Bir neçə əşya birləşərək vahid bədii-konstruktiv forma yaradarsa, onlar bir sənaye nümunəsi kimi qəbul edilir.

Bir neçə sənaye nümunəsi təsnifatın eyni sinfinə aiddirsə, onlar bir sənaye nümunəsi sayılır.

Sənaye nümünəsi barəsində iddia sənədinə aşağıdakılar daxil edilir:

müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

məmulatın zahiri görkəmi barədə müfəssəl təsəvvür yaradan fotoşəkil dəsti, maket və ya rəsm;

sənaye nümunəsinin mahiyyətini açıqlamaq zəruri olduqda məmulatın ümumi görkəminin çertyojları, erqonomik sxemi, konfeksiya xəritəsi;

sənaye nümunəsinin mühüm əlamətlərini əks etdirən təsviri.

5. İddia sənədi daxil olduğu gündən 3 aydan gec olmayaraq müəyyənləşdirilmiş məbləğdə dövlət rüsumunun ödənildiyini təsdiqləyən sənəd təqdim edilə bilər.

6. Patentin alınması barədə iddia sənədinə aid tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

7. Patent verilməsi barədə ərizə Azərbaycan dilində tərtib olunur. İddia sənədinin digər materialları Azərbaycan dilində və ya başqa dildə verilə bilər. İddia sənədinin başqa dildə

verilmiş materiallarının Azərbaycan dilində tərcüməsi iddia sənədinin verildiyi gündən 2 ay müddətində təqdim olunmalıdır.

İddia sənədi ilə bağlı kargüzarlıq Azərbaycan dilində aparılır.

8. İddia sənədinin verildiyi gündən 1 ay ərzində iddiaçının hüququ var ki, barəsində iddia sənədi verdiyi ixtira, faydalı model və sənaye nümunəsinin mahiyyətini dəyişmədən iddia sənədinin materiallarına düzəlişlər və əlavələr etsin.

Müvafiq icra hakimiyyəti orqanı iddia sənədi materiallarının rəsmi bülletendə dərcinə dair qərar qəbul edənədək iddiaçı müəyyənləşdirilmiş rüsumu ödəmək şərtilə düzəlişləri və əlavələri 1 aylıq müddət keçəndən sonra da edə bilər.

Dəyişikliklər ekspertin təklifi ilə də edilə bilər. İddia sənədində göstərilmiş ixtira, faydalı model və sənaye nümunəsinin mahiyyətini dəyişən və iddia sənədinin əvvəlki materiallarında olmayan əlamətlərə malik əlavə materiallar iddia sənədinə baxılarkən nəzərə alınmır və iddiaçı tərəfindən müstəqil iddia sənədi kimi tərtib edilə bilər.

Maddə 28. **ixtira, faydalı model və sənaye nümunəsinin ilkinliyi**

1. ixtira, faydalı model və sənaye nümunəsinin ilkinliyi bu Qanunun 27-ci maddəsinə müvafiq rəsmiləşdirilmiş iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən müəyyənləşdirilir.

İlkin hüququ ixtira üzrə bu Qanunun 7-ci maddəsinin 3-cü və 4-cü bəndlərinə, faydalı model üzrə bu Qanunun 8-ci maddəsinin 3-cü bəndinə, sənaye nümunəsi üzrə isə bu Qanunun 9-cu maddəsinin 3-cü bəndinə uyğun olaraq iddia sənədinin verildiyi tarixdən yaranır.

2. ixtira, faydalı model və sənaye nümunəsi üzrə ilkinlik ilk iddia sənədinin Sənaye mülkiyyətinin mühafizəsinə dair Paris konvensiyasının və ya Ümumdünya Ticarət Təşkilatının iştirakçısı olan dövlətdə verilməsi tarixindən müəyyənləşdirilə bilər (konvensiya ilkinliyi), bu şərtlə ki, ixtira və faydalı model barəsində iddia sənədi həmin tarixdən etibarən 12 ay ərzində, sənaye nümunəsi barəsində iddia sənədi isə 6 ay ərzində müvafiq icra hakimiyyəti orqanına verilmiş olsun.

Paris konvensiyasının və ya Ümumdünya Ticarət Təşkilatının iştirakçısı olan dövlətin ərazisində təşkil edilən beynəlxalq rəsmi sərgidə nümayiş etdirilmiş obyektin ilkinliyi həmin obyektin sərgidə açıq nümayiş etdirildiyi tarixdən xahiş edilə bilər, bu şərtlə ki, ərizə həmin tarixdən ən geci 6 ay keçənədək verilmiş olsun (sərgi ilkinliyi).

Bu müddət konvensiya ilkinliyi müddətini uzatmır.

3. Faydalı model və ya sənaye nümunəsi üçün konvensiya ilkinliyi hüququndan istifadə etmək istəyən iddiaçı bu istəyini iddia sənədini verərkən və ya iddia sənədi müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən 2 ay ərzində bildirərək iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən 3 ay ərzində əvvəlki iddia sənədinin təsdiqlənmiş surətini təqdim etməlidir. İxtira üçün konvensiya ilkinliyi hüququndan istifadə etmək istəyən iddiaçı bu istəyini iddia sənədini verərkən və ya iddia sənədi müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən 2 ay ərzində bildirərək birinci iddia sənədinin təsdiqlənmiş surətini Paris Konvensiyasının iştirakçısı olan dövlətin patent idarəsinə verildiyi tarixdən 16 ay ərzində təqdim etməlidir.

Məlumatda iddiaçı əvvəlki iddia sənədi obyektinə biblioqrafiya göstəricilərini təqdim edir. Zərurət olduqda müvafiq icra hakimiyyəti orqanı təqdim edilmiş məlumat üzrə əlavə informasiyanı həmin iddia sənədini qəbul etmiş təşkilatdan istəyə bilər.

4. İlkinlik barəsində ərizə bu maddənin 2-ci bəndində göstərilən müddətdə verilmədikdə və bu maddənin 3-cü və 8-ci bəndlərində göstərilən şərtlər yerinə yetirilmədikdə ilkinlik iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən müəyyən edilir.

5. İlkinlik Azərbaycan Respublikasının iştirak etdiyi sənaye mülkiyyətinin mühafizəsinə dair beynəlxalq sazişlərə uyğun olaraq eyni iddia sənədinin verilməsi tarixindən də müəyyən edilə bilər, bu şərtlə ki, iddiaçı həmin iddia sənədini geri götürmüş olsun və onun ilkinliyi tarixi ilə indiki iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarix arasında ixtira və faydalı model üçün ən çoxu 12 ay, sənaye nümunəsi üçün ən çoxu 6 ay keçsin.

6. İlkinlik əlavə materialların verildiyi tarixdən də müəyyən edilə bilər.

Əlavə materiallar iddia edilən texniki həllərin mahiyyətini dəyişdiyi üçün onların nəzərə alınmasının mümkün olmadığı barədə müvafiq icra hakimiyyəti orqanı iddiaçıya bildiriş göndərmişsə, iddiaçının həmin bildirişi aldığı gündən 3 ay müddət ötənədək təqdim etdiyi müstəqil iddia sənədi üzrə ilkinlik əlavə materialların daxil olduğu tarixdən müəyyən edilə bilər.

7. İlkinlik iddiaçının daha da əvvəl verdiyi və bu ixtira, faydalı model və sənaye nümunəsinin mahiyyətini açıqlayan iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən də müəyyən edilə bilər, bu şərtlə ki, ilkinliyi istənilən ixtira və faydalı model barəsində iddia sənədi əvvəlki iddia sənədinin daxil olduğu tarixdən ən geci 12 ay keçənədək, sənaye nümunəsi barəsində əvvəlki iddia sənədinin daxil olduğu tarixdən isə ən geci 6 ay keçənədək daxil olsun. Bu zaman əvvəlki iddia sənədi geri götürülmüş sayılır.

İlkinlik daha əvvəl verilən bir neçə iddia sənədi üzrə müəyyən edilə bilər.

İlkinlik bundan əvvəl ilkinliyi istənilmiş iddia sənədinin daxil olduğu tarixdən müəyyənləşdirilə bilməz.

8. Konvensiya ilkinliyi və ya daha əvvəl verilmiş iddia sənədi üzrə ilkinlik istəyən iddiaçı ilkinlik istədiyi tarixdən 2 ay müddətində müvafiq icra hakimiyyəti orqanına müəyyənləşdirilmiş rüsumu ödədiyi barədə sənəd təqdim etməlidir.

9. Konvensiya ilkinliyi xahiş edilən iddia sənədi iddiaçıdan asılı olmayan səbəblərdən müəyyən edilən müddətdə verilmədikdə, dövlət rüsumu ödənilməsi şərtilə bu müddət 2 ayadək uzadıla bilər.

10. Ekspertiza prosesində oxşar ixtira, faydalı model və sənaye nümunələrinin ilkinlik tarixlərinin eyni olduğu müəyyənləşdirildikdə ilkinlik daha əvvəl müvafiq icra hakimiyyəti orqanına göndərilmiş iddia sənədi üzrə müəyyən edilir. Bu tarixlər də eyni olarsa, müvafiq icra hakimiyyəti orqanında daha əvvəl qeydiyyat nömrəsi almış iddia sənədi (iddiaçılar arasında müqavilədə başqa qayda nəzərdə tutulmayıbsa) birinci sayılır.

11. İddiaçıların ilkinlik barəsində mübahisələrinə Apellyasiya şurasında baxılır. İddiaçı Apellyasiya şurasının qərarı ilə razı olmadığı halda məhkəməyə müraciət edə bilər.

Maddə 29. **İddia sənədinin ekspertizası**

1. Müvafiq icra hakimiyyəti orqanı ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin ekspertizasına dair müəyyənləşdirilmiş məbləğdə rüsumun ödənildiyini təsdiqləyən

sənədi aldığı tarixdən etibarən 1 ay ərzində onun bu Qanunun 27-ci maddəsinin 3-cü, 4-cü, 5-ci və 6-cı bəndlərinə uyğun ilkin ekspertizasını aparır. İlkin ekspertiza zamanı tələb olunan sənədlərin mövcudluğu və düzgün tərtib olunması yoxlanılır.

2. Bu Qanunun 27-ci maddəsinin 3-cü, 4-cü, 5-ci və 6-cı bəndlərinin tələblərinə uyğun tərtib olunmamış iddia sənədi barəsində iddiaçıya sorğu göndərilir. İddiaçı sorğunu aldığı gündən 2 ay ərzində düzəliş aparılmış və ya qaytarılmayan sənədləri (materialları) təqdim etməlidir.

İddiaçı tələb olunan materialları və ya müddətin uzadılması barədə vəsatəti (rüsum ödəmək şərti ilə) müəyyənləşdirilmiş müddətdə təqdim etməzsə, iddia sənədi verilməmiş sayılır.

3. İddia sənədi vaxtında baxılmaq üçün qəbul olunduqda müvafiq icra hakimiyyəti orqanı ixtira, faydalı model və sənaye nümunəsinin aşağıda göstərilənlərə uyğunluğu baxımından iddia sənədinin ekspertizasını keçirir:

ixtiralar üçün — bu Qanunun 3-cü maddəsinin 3-cü abzasının, 7-ci maddəsinin 1-ci, 6-cı, 7-ci, 8-ci bəndlərinin tələblərinə;

faydalı model üçün — bu Qanunun 3-cü maddəsinin 3-cü abzasının, 8-ci maddəsinin 1-ci, 5-ci, 6-cı bəndlərinin tələblərinə;

sənaye nümunəsi üçün — bu Qanunun 3-cü maddəsinin 3-cü abzasının, 9-cu maddəsinin 1-ci, 5-ci, 6-cı və 7-ci bəndlərinin tələblərinə.

ixtira, faydalı model və sənaye nümunələrinin yeniliyi baxımından iddia sənədlərinin ekspertizası bu Qanunun 7-ci maddəsinin 3-cü bəndinin 2-ci abzası və 4-cü bəndinə, 8-ci maddəsinin 3-cü bəndinin 3-cü abzasına, 9-cu maddəsinin 3-cü bəndinin 2-ci abzasına uyğun olaraq və Azərbaycan Respublikası ərazisində qüvvədə olan mühafizə sənədləri üzrə aparılır.

İddia sənədində göstərilən obyektin bu maddənin tələblərinə uyğunluğu ekspertiza nəticəsində müəyyənləşdirildikdə iddia sənədinin müvafiq icra hakimiyyəti orqanının rəsmi bülletenində dərc olunması barədə qərar qəbul edilir və iddiaçı müvafiq rüsumu ödədikdən sonra iddia sənədi üzrə materiallar dərc olunur.

4. İddia sənədində göstərilən obyektin bu maddənin tələblərinə uyğun olmadığı ekspertiza nəticəsində müəyyənləşdirildikdə patent verilməsindən imtina barəsində qərar qəbul edilir.

5. İxtira və ya faydalı model barəsində bir neçə iddia obyektindən ibarət olan və vəhdət tələblərini təmin etməyən iddia sənədi verildikdə iddiaçıya təklif edilir ki, müvafiq bildirişi aldığı gündən 2 ay müddətində iddia obyektlərindən hansı birinə baxılmalı olduğunu bildirsin.

İddiaçı göstərilən müddətdə bildirişə cavab vermədikdə müvafiq icra hakimiyyəti orqanı ixtiranın və faydalı modelin düsturunun birinci bəndində göstərilən iddia obyektinə baxır.

İddia sənədində göstərilən ixtira və ya faydalı model üçün qalan iddia obyektləri müstəqil şəkildə ayrılmış iddia sənədi kimi verilə bilər.

Ayrılmış iddia sənədi üzrə ixtira və ya faydalı model üçün iddia obyekti əvvəl verilmiş iddia sənədinin məzmunundan kənara çıxmamalı və onun tərkib hissəsi kimi iddiaçı tərəfindən dəqiq səciyyələndirilməlidir. Ayrılmış iddia sənədi müvafiq icra hakimiyyəti orqanına ixtira üçün əvvəlki iddia sənədinin verildiyi tarixdən 12 ay keçənədək, faydalı model üçün isə əvvəlki iddia sənədinin verildiyi tarixdən 6 ay keçənədək təqdim edilməlidir.

Hər bir ayrılmış iddia sənədinə görə, müstəqil iddia sənədinin verilməsi üçün müəyyənləşdirilmiş məbləğdə rüsum ödənilir. Bu tələb yerinə yetirildikdə əvvəlki iddia sənədinin ilkinliyi ayrılmış iddia sənədi üçün də saxlanılır.

Ayrılmış iddia sənədinin obyekti əvvəlki iddia sənədinin məzmunundan kənara çıxdıqda iddia sənədinin son redaksiyasının verildiyi tarix ayrılmış iddia sənədinin verilməsi tarixi sayılır.

6. Patentin verilməsindən imtina qərarı barəsində iddiaçı həmin qərarı aldığı gündən 2 ay ərzində müvafiq rüsumu ödəməklə müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurasına etirazla müraciət edə bilər.

7. İddiaçı Apellyasiya şurasının qərarına dair bütün materiallarla tanış ola bilər.

8. İddiaçının ixtiyarı var ki, patent qeydə alınana qədər iddia sənədini geri götürsün. Bu zaman ödənilmiş rüsumlar qaytarılmır.

9. İxtira üçün iddia sənədi barəsində məlumat dərc olunana qədər iddiaçı ərizə verməklə onu faydalı model üçün iddia sənədinə (və ya əksinə) çevirə bilər.

Göstərilən hallarda əvvəlki iddia sənədinin ilkinliyi saxlanır.

10. Müvafiq icra hakimiyyəti orqanı iddia sənədinin verildiyi tarixdəni 18 ay ərzində müvafiq rüsumun ödənilməsi şərtilə iddiaçının və ya marağı olan başqa şəxsin vəsatəti əsasında obyektin patent qabiliyyətini müəyyənləşdirmək üçün məlumat axtarışı apara bilər.

İddia sənədinin mahiyyətcə ekspertizası müvafiq rüsumun ödənilməsi şərtilə iddiaçının və ya marağı olan başqa şəxsin vəsatəti əsasında, iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi tarixdən 18 ay ərzində aparıla bilər.

Mahiyyətcə ekspertizanın nəticəsi iddiaçıya və ya marağı olan şəxsə bildirilir.

İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

Maddə 30. **İddia sənədi barəsində məlumatın dərci**

1. Müvafiq icra hakimiyyəti orqanı ixtira və faydalı model barəsində iddia sənədini aldığı tarixdən ən geci 12 ay keçənədək, sənaye nümunəsi barəsində iddia sənədini aldığı tarixdən ən geci 6 ay keçənədək iddia sənədlərinə dair məlumatı özünün rəsmi bülletenində dərc edir. İddiaçının vəsatəti üzrə, müəyyən edilmiş rüsum ödənilməklə, iddia sənədinə dair məlumat yuxarıda göstərilən tarixdən tez də dərc edilə bilər.

2. ixtira, faydalı model və sənaye nümunəsi müəllifinin hüququ var ki, müvafiq icra hakimiyyəti orqanının rəsmi dərcində həmin obyektin müəllifi kimi göstərilməməsini tələb etsin.

3. İddia sənədinə dair məlumatda aşağıdakılar göstərilməlidir:

müəllif (əgər müəllif kimi göstərilmək hüququndan imtina etməyibsə) və iddiaçı haqqında məlumat;

obyektin adı;

beynəlxalq patent təsnifatı indeksi;

sənaye nümunəsinin beynəlxalq indeksi;

ilkinlik tarixi;

ixtiranın və ya faydalı modelin referatı;

sənaye nümunəsinin mühüm əlamətlərinin siyahısı və təsviri.

4. İddia sənədinə dair məlumat dərc olunduqdan sonra 7-ci maddənin 3-cü bəndinin 1-ci abzası, 8-ci maddənin 3-cü bəndinin 1-ci və 2-ci abzasları, 9-cu maddənin 3-cü bəndinin 1-ci abzası üzrə iddia obyektinin yeniliyi üçün məsuliyyət iddiaçının üzərinə düşür.

5. İddia sənədinə dair məlumat dərc olunduqdan sonra marağı olan hər bir hüquqi və ya fiziki şəxsin, rüsum ödəmək şərti ilə, müvafiq icra hakimiyyəti orqanında iddia sənədinin materialları ilə tanış olmaq, habelə müvafiq ixtira, faydalı model və sənaye nümunəsinin təsvirini, çertyojlarını, rəsmlərini və fotoşəkillərini almaq hüququ vardır.

Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

6. İddia sənədinə dair məlumat aşağıdakı hallarda dərc olunmur:

patent verilməsindən imtina qərarı qəbul edildikdə;

iddia sənədi geri götürüldükdə;

~~iddiaçı möhlət barədə vəsatət təqdim etdikdə;~~

~~iddiaçı dərcdən imtina barədə vəsatət təqdim etdikdə.~~

7. İxtira və ya faydalı model obyekti dövlətin milli təhlükəsizliyi mənafelərinə aid olduqda müvafiq icra hakimiyyəti orqanı öz təşəbbüsü ilə iddia sənədinə dair məlumatın dərcini bu barədə qərarın çıxarıldığı tarixdən etibarən 4 aya qədər dayandırmaq hüququna malikdir. Bu müddət keçdikdən sonra həmin qərar müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiqlənmədikdə və müddəti uzadılmadıqda qüvvədən düşür.

Müvafiq icra hakimiyyəti orqanı məlumatın dərcini, ixtiranın (faydalı modelin) açıq istifadəsini, yaxud iddia sənədi və ya patent obyektinin istifadəsini qadağan etdikdə iddiaçı və ya patent sahibi həmin orqandan müvafiq kompensasiya ödənilməsini tələb edə bilər. Müvafiq kompensasiya məlumatın dərcini və ixtiranın (faydalı modelin) istifadəsinin qadağan olunduğu ilk 12 aylıq müddət uzadıldıqda tələb edilə bilər. Bu halda yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

8. İddia sənədi materiallarının dərc olunduğu tarixdən patentin verildiyi tarixə kimi hər bir ixtira, faydalı model və sənaye nümunəsinə müvəqqəti hüquqi mühafizə verilir.

~~Patent verilməsindən rədd qərarı qəbul olunduqda müvəqqəti hüquqi mühafizə başlanmamış sayılır.~~

Müvəqqəti mühafizə hüququ verilən ixtiradan, faydalı modeldən və sənaye nümunəsindən istifadə edən hüquqi və ya fiziki şəxslər patent alındıqdan sonra patent sahibinə kompensasiya ödəməlidirlər. Kompensasiyanın həcmi və ödəmə qaydası tərəflər arasında razılaşma ilə müəyyən edilir.

Geri götürülmüş və ya geri götürülmüş hesab edilən, yaxud patent verilməsindən imtina qərarı qəbul edilən və həmin qərardan etiraz verilməsi üçün müəyyən edilmiş müddətin keçdiyi ixtiraya, faydalı modelə və sənaye nümunəsinə dair iddia sənədi müvəqqəti mühafizə hüququ verilməmiş hesab edilir.

Maddə 31. **İddia sənədinə etiraz**

1. İddia sənədinin dərc olunduğu tarixdən etibarən 6 ay ərzində hər bir hüquqi və ya fiziki şəxs Apellyasiya şurasına əsaslandırılmış etirazla müraciət edə bilər. Bu zaman istinad edilən materialların surəti də təqdim edilir.

2. Bu Qanunun 3-cü maddəsinin 3-cü abzasında, 7, 8 , 9, 27 və 29-cu maddələrində göstərilən tələblər pozulduqda da iddia sənədinə etiraz verilə bilər.

3. Əsaslandırılmış etirazın surəti iddiaçıya göndərilir.

İddiaçı etirazın surətini aldığı tarixdən 2 ay ərzində ona cavab verməlidir.

İddiaçı cavabını müəyyən edilən müddət ərzində Apellyasiya şurasına təqdim etmədikdə iddia sənədi rədd edilmiş sayılır.

4. Apellyasiya şurası iddiaçının cavabına onu aldığı tarixdən 2 ay ərzində baxır. Hər iki tərəfin etiraza baxılması prosesində iştirak etmək, zəruri sənədləri təqdim etmək və şifahi izahat vermək hüququ vardır.

5. Apellyasiya şurası etiraza baxılmasının nəticəsinə uyğun olaraq, etirazın tam və ya qismən təmin olunması, yaxud rədd edilməsi barədə qərar qəbul edir və iddiaçıya bildiriş göndərir.

Maddə 32. **ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı və patentin verilməsi**

1. Müvafiq icra hakimiyyəti orqanı dərc olunmuş iddia sənədinə etirazın verilməsi müddəti qurtardıqdan və ya Apellyasiya şurasının patentin verilməsinə dair qərar qəbul etdiyi tarixdən etibarən 2 ay ərzində ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı, patentin verilməsi və dərc olunması üçün rüsum ödənilməsi şərti ilə, müvafiq Dövlət reyestrində ixtira, faydalı model və sənaye nümunəsini qeydə alır və iddiaçı olan şəxsə patent verir.

ixtira, faydalı model və sənaye nümunələrinin Dövlət reyestrinə daxil edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

2. Patent sahibi patentin qüvvədə saxlanması üçün illik rüsumu ixtira, faydalı model və sənaye nümunəsinə dair iddia sənədinin verildiyi tarixdən etibarən onun qüvvədə olmasının 3-cü ilindən başlayaraq ödəyir.

3. Patenti xahiş edən şəxs bir neçə olarsa, onlardan birinə bir patent, qalanlarına isə patentin müvafiq icra hakimiyyəti orqanında təsdiq edilmiş surəti verilir.

4. Patent sahibinin əsaslandırılmış vəsatəti ilə ona müəyyənləşdirilmiş rüsumu ödəməsi şərtilə patentin dublikatı verilə bilər.

5. İddiaçı ilə müəllif müxtəlif şəxslər olduqda müəllif patentin surətini ala bilər.

6. Müəllif patentdə öz adının göstərilməsindən imtina edə bilər.

Maddə 33. **Patent barəsində məlumatın dərci**

1. Müvafiq icra hakimiyyəti orqanı ixtira, faydalı model və sənaye nümunəsini qeydə aldıqdan və patent verdikdən sonra 3 ay ərzində patent barəsində məlumatı rəsmi bülletenində dərc edir. Məlumata aşağıdakılar daxil edilir:

patentin sahibinin (sahiblərinin) adı, müəllif kimi göstərilməkdən imtina etməyibsə, müəllifin (müəlliflərin) adı;

ixtira, faydalı model və sənaye nümunəsinin adı;

iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarix;

ilkinlik tarixi;

ixtiranın və faydalı modelin düsturu;

sənaye nümunəsinin mühüm əlamətlərinin siyahısı və onun təsviri.

2. ixtira, faydalı model və sənaye nümunəsi üçün verilmiş patentin bu Qanunun 7-ci maddəsinin 3-cü bəndində, 8-ci maddəsinin 3-cü bəndinin 1-ci və 2-ci abzaslarında, 9-cu maddəsinin 3-cü bəndinin 1-ci abzasında müəyyənləşdirilmiş tələbləri uyğun olmamasına görə patent sahibi qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Maddə 34. **Verilmiş patentə etiraz**

1. Bu Qanunun 3-cü maddəsinin 3-cü abzasının, 7-ci maddəsinin 1, 6, 7, 8-ci bəndlərinin, 8-ci maddəsinin 1, 5, 6-cı bəndlərinin, 9-cu maddəsinin 1, 5, 6-cı bəndlərinin, 27-ci və 29-cu maddələrinin tələbləri pozulduqda, yaxud ixtiranın, faydalı modelin düsturunda və sənaye nümunəsinin mühüm əlamətləri məcmusunda əvvəlki iddia sənədində göstərilmiş əlamətlər olmadıqda istənilən hüquqi və ya fiziki şəxs patent barəsində məlumatın dərc edildiyi tarixdən 6 ay ərzində patentin verilməsinə qarşı əsaslandırılmış etirazla Apellyasiya şurasına müraciət edə bilər.

2. Etiraz vermiş hüquqi və ya fiziki şəxs, həmçinin patent sahibi Apellyasiya şurasında ona baxılmasında iştirak edirlər.

3. Patent obyekti barəsində məlumatın dərc olunduğu tarixdən 6 ay keçdikdən sonra Apellyasiya şurası verilmiş patent barəsində etirazları qəbul etmir.

4. Apellyasiya şurasının qərarından məhkəməyə şikayət edilə bilər.

Maddə 35. **Patentdə və ixtira, faydalı model və sənaye nümunəsinə dair Dövlət reyestrində dəyişikliklər edilməsi**

1. Patent sahibinin vəsatətinə əsasən müvafiq icra hakimiyyəti orqanı verilmiş patentdə aşkar və texniki səhvləri düzəltməlidir.

2. Patent sahibi patentdə hüquqi şəxsin adını, fiziki şəxsin soyadını, adını, atasının adını dəyişdirdiyi halda bu barədə məlumatı müvafiq icra hakimiyyəti orqanına bildirməlidir.

Patent sahibi verilmiş patentdə dəyişikliklər barədə vəsatət qaldırıqda və müəyyənləşdirilmiş rüsumu ödədikdə müvafiq icra hakimiyyəti orqanı ixtira, faydalı model və sənaye nümunələrinin Dövlət reyestrində dəyişikliklər edir.

Maddə 36. **Patentin qüvvəsinə vaxtından əvvəl xitam verilməsi**

1. Aşağıdakı hallarda patentin qüvvəsinə vaxtından əvvəl xitam verilir:

patent sahibinin müvafiq icra hakimiyyəti orqanına verdiyi ərizə əsasında;

patentin qüvvədə saxlanması üçün rüsumun ödənilməsi üçün müəyyən edilmiş müddətdən 12 aylıq möhlət müddəti keçənədək ödənilmədikdə;

bu Qanunun 37-ci maddəsinə uyğun olaraq patent tamamilə etibarsız sayıldıqda.

2. Müvafiq icra hakimiyyəti orqanı patentə vaxtından əvvəl xitam verilməsi barədə məlumatı rəsmi bülletenində dərc edir.

Maddə 37. **Patentin etibarsız sayılması**

1. İxtira, faydalı model və sənaye nümunəsinin patenti onun qorunduğu bütün dövrə şamil olunmaqla aşağıdakı hallarda bütövlükdə etibarsız sayıla bilər:

bu Qanunun 7, 8, 9-cu maddələrinə uyğun olmadığı təsdiq edildikdə;

patentin təsviri mütəxəssis tərəfindən həyata keçirilməsi üçün aydın və tam açıqlanmadıqda;

patentlə verilən hüququn həcmi ilkin iddia sənədinin hüdudlarından kənara çıxdıqda;

bu Qanunun 12-ci maddəsinə uyğun patent onu almaq hüququna malik olmayan şəxsə verildikdə.

2. Bu maddənin 1-ci bəndində göstərilən şərtlər patentə tamamilə aid olmadıqda patent qismən etibarsız sayıla bilər.

3. Patentin etibarsız sayılmasına dair yaranan mübahisələrə Apellyasiya şurasında və ya məhkəmədə baxılır.

Maddə 38. **Ötürülmüş müddətlərin bərpası**

1. Bu Qanunun 29-cu maddəsinin 6-cı bəndində, 31-ci maddəsinin 3-cü bəndində və 34-cü maddənin 1-ci bəndində nəzərdə tutulan müddətlər üzürlü səbəbdən ötürüldükdə və müəyyənləşdirilmiş rüsum ödənildikdə müvafiq icra hakimiyyəti orqanı ötürülmüş müddəti bərpa edə bilər.

2. İddiaçı və ya etiraz edən şəxs ötürülmüş müddətin bərpası barədə vəsatəti ötürülmüş müddətin qurtardığı tarixdən etibarən 3 ay ərzində verə bilər.

3. İxtira, faydalı model və sənaye nümunəsi patentinin qüvvədə saxlanılması üçün müəyyən edilmiş illik rüsumu vaxtında ödəməyən patent sahibi, ötürülmüş tarixdən 5 il müddətindən gec olmayaraq müvafiq dövlət rüsumunu ödəməklə, patentin qüvvəsi bərpa edilə bilər. Patent sahibinin vəsatətinə ötürülmüş illər üzrə rüsumun ödənildiyini təsdiqləyən sənədin surəti əlavə olunur.

VII fəsil

Yekun müddəaları

Maddə 39. **Dövlət rüsumları**

Bu Qanunla müəyyən edilmiş patentlə bağlı hüquqi əhəmiyyətli işlərin yerinə yetirilməsi, patent müvəkkillərinin attestasiyası, qeydiyyatı, şəhadətnamələrin verilməsi və onlara dair məlumatın dərci üçün dövlət rüsumları ödənilir.

Maddə 40. **Mübahisələrə məhkəmə qaydasında baxılması**

Bu Qanundan irəli gələn patentlə bağlı mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəmədə baxılır.

Maddə 41. **ixtira, faydalı model və sənaye nümunəsinin xarici dövlətlərdə patentləşdirilməsi**

Sənaye mülkiyyəti obyekti barədə iddia sənədi müvafiq icra hakimiyyəti orqanına verildikdən sonra xarici dövlətdə patentləşdirilə bilər.

ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən etibarən 3 ay ərzində həmin orqan patent alınması üçün iddia sənədinin xarici dövlətə verilməsinin mümkünlüyü haqqında müvafiq qərar qəbul edir və iddiaçıya bildiriş göndərir.

Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə əlaqədar mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmədə baxılır.

Maddə 42. **Xarici hüquqi və fiziki şəxslərin patentlə bağlı hüquqları**

Xarici hüquqi və fiziki şəxslər bu Qanunla nəzərdə tutulmuş hüquqlardan Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrə və ya qarşılıqlı prinsipinə əsasən Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər istifadə edirlər.

Maddə 43. **Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələrdə müəyyənləşdirilən qaydalar bu Qanunda nəzərdə tutulan qaydalardan fərqləndikdə beynəlxalq müqavilənin qaydaları tətbiq olunur.

Maddə 44. **Keçid müddəaları**

Bu Qanun qüvvəyə minənədək ixtira, faydalı model və sənaye nümunəsi barədə verilən və barələrində qərar qəbul edilməmiş iddia sənədlərinin ekspertizası bu Qanunun tələblərinə uyğun aparılır.

Azərbaycan Respublikasının Prezidenti

Heydər ƏLİYEV

Bakı şəhəri, 25 iyul 1997-ci il

№ 312-IQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**)
2. 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**)
3. 20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə preambuladan "**Azərbaycan Respublikası ərazisində**" sözləri çıxarılmışdır.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə II fəslin adında, 1-ci, 5-ci, 6-cı, 10-13-cü, 16-cı, 20-ci, 23-cü, 27-ci, 29-cu, 30-cu və 33-cü maddələrin mətnində, 3-cü, 14-cü, 15-ci, 17-ci, 18-ci, 19-cu, 21-ci, 25-ci, 28-ci, 32-ci, 35-ci və 41-ci maddələrin adında və mətnində ismin müvafiq hallarında "**sənaye mülkiyyəti obyekti**" və "**sənaye mülkiyyəti obyektləri**" sözləri müvafiq olaraq "**ixtira, faydalı model və sənaye nümunəsi**" və "**ixtira, faydalı model və sənaye nümunələri**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 1-ci maddənin ikinci abzas çıxarılmışdır.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 1-ci maddənin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~ixtira — sənayenin və təsərrüfatın digər fəaliyyət sahələrində konkret problemin praktik həllinə imkan verən, patent qabiliyyəti şərtlərini ödəyən yeni həll;~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 1-ci maddənin dördüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~faydalı model — istehsal vasitələrinin və istehlak əşyalarının, yaxud onların tərkib hissələrinin konstruktiv həlli;~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 1-ci maddənin yeddinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~üsul — bir-biri ilə bağlı proseslərin müəyyən ardıcıllıqla maddi obyekt üzərində yerinə yetirilməsi;~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 1-ci maddənin səkkizinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~maddə — süni surətdə yaradılan maddi törəmə;~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 3-cü maddənin üçüncü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~İctimai mənafeyə, humanizm və əxlaq prinsiplərinə zidd olan ixtira, faydalı model və sənaye nümunəsi patentlə mühafizə edilmir.~~

30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**) ilə 4-cü maddənin üçüncü bəndi çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~3. Müvafiq icra hakimiyyəti orqanının fəaliyyətinin maliyyələşdirilmə mənbələri Azərbaycan Respublikası dövlət büdcəsindən ayrılan vəsait, patent rüsumları və göstərdiyi xidmətlərə görə ödənişlərdir.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 5-ci maddənin adında və mətnində, 28-ci, 29-cu, 31-ci, 32-ci, 34-cü və 37-ci maddələrin mətnində ismin müvafiq hallarında "**Apellyasiya komissiyası**" sözləri müvafiq olaraq "**Apellyasiya şurası**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 6-cı maddənin 3-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3. Patent müvəkkili patent sahibi və ixtira, faydalı model və sənaye nümunəsinin müəllifi ola bilməz.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 7-ci maddənin 1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Aşağıdakı obyektlər ixtira sayıla bilər:~~

~~qurğu;~~

~~üsul;~~

~~maddə;~~

~~mikroorqanizm ştammı;~~

~~bitki və heyvan hüceyrələrinin kulturaları;~~

~~əvvəllər məlum olan qurğunun, üsulun, maddənin, mikroorqanizm ştammının yeni təyinatla tətbiqi.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 7-ci maddənin 2-ci bənddə "**ixtira**

**səviyyəli olan**" sözlərindən sonra "**(bəlli olmayan)**" sözləri, "**sənayedə tətbiq edilə bilən**" sözlərindən sonra isə "**(faydalı)**" sözü əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 7-ci maddənin 3-cü bəndin ikinci abzası yeni redaksiyada verilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 7-ci maddənin 8-ci bəndə ikinci-on üçüncü abzaslar müvafiq olaraq üçüncü-on dördüncü abzaslar hesab edilmişdir və ikinci abzas əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 7-ci maddənin 8-ci bəndə on birinci abzasa "**qurğu**" sözündən sonra "**(tikili kimi qurğu)**" sözləri əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 7-ci maddənin 8-ci bəndin on birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~bitki sortları və heyvan cinsləri (mikrobioloji üsullar və bu üsulla alınan məhsullar istisna olmaq şərt ilə);~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 8-ci maddənin 1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. İstehsal vasitələri, istehlak əşyaları və onların hissələri, konstruktiv həlli və funksional xüsusiyyətləri faydalıdırsa, üstünlük verirsə, vaxta qənaət edirsə, əl əməyini yüngülləşdirirsə və ya əməyin gigiyena, yaxud psixoloji-fiziki şəraitini yaxşılaşdırırsa, yeni təyinat üzrə istifadə olunursa, faydalı model sayıla bilər.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 8-ci maddənin 6-cı bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6. Aşağıdakı obyektlər faydalı model sayılmır:~~

~~üsul;~~

~~maddə;~~

~~mikroorqanizm ştammı;~~

~~bitki və heyvan hüceyrələrinin kulturaları, həmçinin onların yeni təyinatla tətbiqi;~~

~~bu Qanunun 7-ci maddəsinin 8-ci bəndində göstərilən obyektlər.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 9-cu maddənin 2-ci bənddə "**və**" bağlayıcısı "**və ya**" sözləri ilə əvəz edilsin və "**, sənayedə tətbiq edilə bilən**" sözləri çıxarılmışdır.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 9-cu maddənin birinci abzasda "**dünyada hamıya müyəssər olmuş**" sözləri "**mühüm əlamətlərinin məcmusu mövcud**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 8-ci maddənin 3-cü bəndin ikinci abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Digər hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasında sənaye nümunələri barəsində verdikləri və müvafiq icra hakimiyyəti orqanının rəsmi bülletenində dərc olunmuş iddia sənədləri də mövcud bilgilər məcmusuna aid edilir.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 8-ci maddənin 6-cı bənd çıxarılmışdır və 7-ci bənd 6-cı bənd hesab edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 10-cu maddəyə 3-cü, 4-cü və 5-ci bəndlər əlavə edilmişdir və 3-cü bənd 6-cı bənd hesab edilmişdir.

23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**) ilə 14-cü maddəsinin 2-ci hissəsinə ikinci cümlə əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 14-cü maddənin 2-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Patent sahibinin razılığı olmadan heç kəs patentlə mühafizə olunan ixtira, faydalı model və sənaye nümunəsindən istifadə edə bilməz. Dövlət sirri təşkil edən məlumatları əks etdirən ixtiralardan istifadə etmək hüququ müvəqqəti məhdudlaşdırıla bilər.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 15-ci maddəyə 4-cü bənd əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 17-ci maddənin 2-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. ixtira, faydalı model və sənaye nümunəsinə patent almaq hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada vərəsəlik üzrə keçir.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 20-ci maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Maddə 20.** İstifadə hüququnun verilməsinə dair məcburi lisenziya~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 20-ci maddənin 2-ci bənd çıxarılmışdır və aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 22-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Tərkibində patentləşdirilmiş sənaye mülkiyyəti obyekti olan məhsulun (məmulatın) icazəsiz hazırlanması, tətbiqi, idxalı, satış üçün təklif olunması, satışı, təsərrüfat dövriyyəsinə başqa şəkildə daxil edilməsi və ya bu məqsədlə saxlanması, həmçinin patentlə mühafizə olunan üsulun tətbiqi, bilavasitə həmin üsulla hazırlanmış məhsulun təsərrüfat dövriyyəsinə daxil edilməsi, yaxud bu məqsədlə saxlanması patent sahibinin müstəsna hüququnun pozulması sayılır.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 23-cü maddənin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~tərkibində patentləşdirilmiş ixtira, faydalı model və sənaye nümunəsi olan vasitələrin elmi, eksperiment və ya tədqiqat məqsədləri, həmçinin patentləşdirilmiş ixtira, faydalı model və sənaye nümunəsinin yoxlanması üçün istifadəsi;~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 24-cü maddənin 1-ci bəndinin birinci cümləsi çıxarılmışdır.

30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**) ilə 27-ci maddənin 5-ci bəndindən "**yaxud zəruri olduqda rüsum məbləğinin azaldılmasına əsas verən**" sözləri çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:

~~5. İddia sənədinə müəyyənləşdirilmiş məbləğdə patent rüsumunun ödənildiyini təsdiqləyən, yaxud zəruri olduqda rüsum məbləğinin azaldılmasına əsas verən sənəd qoşulur.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 27-ci maddənin 5-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5. İddia sənədinə müəyyənləşdirilmiş məbləğdə patent rüsumunun ödənildiyini təsdiqləyən sənəd qoşulur.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 28-ci maddənin 2-ci bəndin birinci və ikinci abzaslarına "Paris konvensiyasının" sözlərindən sonra "və ya Ümumdünya Ticarət Təşkilatının" sözləri əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 28-ci maddənin 3-cü bəndin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Konvensiya ilkinliyi hüququndan istifadə etmək istəyən iddiaçı bu istəyini iddia sənədini verərkən və ya iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən 2 ay ərzində bildirməli, bunun üçün əsaslandığı əvvəlki iddia sənədi və patent haqqında məlumatı həmin iddia sənədini qəbul etmiş orqan tərəfindən təsdiqlənmiş şəkildə təqdim etməlidir.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 28-ci maddənin 6-cı bəndin yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6. Əgər əlavə materiallar ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədinin mahiyyətini dəyişdirdiyinə görə müvafiq icra hakimiyyəti orqanı onların nəzərə alınmasının mümkün olmadığına dair iddiaçıya bildiriş göndərmişdirsə, ilkinlik iddiaçının həmin bildirişi aldığı gündən 3 ay ərzində müstəqil iddia sənədi kimi rəsmiləşdirdiyi əlavə materialların daxil olduğu tarixdən də müəyyən edilə bilər.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 28-ci maddənin 7-ci bəndə ikinci və üçüncü abzaslar əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 28-ci maddənin 9-cu bəndin yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~9. İlkinlik bundan əvvəl ilkinliyi istənilmiş iddia sənədinin daxil olduğu tarixdən müəyyənləşdirilə bilməz.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 29-cu maddənin 1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Müvafiq icra hakimiyyəti orqanı iddia sənədinin daxil olduğu tarixdən etibarən 1 ay ərzində onun bu Qanunun 27-ci maddəsinin 3-cü, 4-cü, 5-ci və 6-cı bəndlərinə uyğun tərtib edildiyini yoxlayır, iddia sənədinin qeydə alınması, ilkinliyinin təsdiq edilməsi, yaxud ekspertizası barədə qərar qəbul edir.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 30-cu maddənin 6-cı bəndin dördüncü və beşinci abzasları çıxarılmışdır.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 30-cu maddənin 8-ci bəndin ikinci abzası çıxarılmışdır və ikinci və üçüncü abzaslar əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 36-cı maddənin 1-ci bəndinin üçüncü abzasında "**rüsum vaxtında ödənilmədikdə**" sözləri "**rüsumun ödənilməsi üçün müəyyən edilmiş müddətdən 12 aylıq möhlət müddəti keçənədək ödənilmədikdə**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 37-ci maddənin 1-ci bəndinin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Patent aşağıdakı hallarda tamamilə etibarsız sayıla bilər:~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 38-ci maddənin 1-ci bənddə "**və**" bağlayıcısı "**,**" işarəsi ilə əvəz edilmişdir və "**3-cü bəndində**" sözlərindən sonra "**və 34-cü maddənin 1-ci bəndində**" sözləri əlavə edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 38-ci maddənin 2-ci bənddə "**İddiaçı**" sözündən sonra "**və ya etiraz edən şəxs**" sözləri əlavə edilmişdir və "**12**" rəqəmi "**3**" rəqəmi ilə əvəz edilmişdir.

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 38-ci maddəyə 3-cü bənd əlavə edilmişdir.

30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**) ilə 39-cu maddə yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~Maddə 39. **Patent rüsumları və ödənişləri**~~

~~Bu Qanunla müəyyən edilmiş patentlə bağlı hüquqi əhəmiyyətli işlərin yerinə yetirilməsi üçün patent rüsumları ödənilir.~~

~~Patent müvəkkillərinin attestasiyası, qeydiyyatı, şəhadətnamələrin verilməsi və onlara dair məlumatın dərci üçün müvafiq icra hakimiyyəti orqanı uyğun ödənişlər alır.~~

~~Patent rüsumlarının və ödənişlərin məbləği və ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 41-ci maddənin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikasında yaradılan ixtira, faydalı model və sənaye nümunəsi həmin obyekt barədə iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi tarixdən etibarən 12 ay müddətində xarici dövlətdə patentləşdirilə bilər.~~

20 oktyabr 2009-cu il tarixli **893-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289**) ilə 44-cü maddə əlavə edilmişdir.